

■ Aygün Hüseynli

## ANAM

Övladı bağlıdır ömrü həyatı,
Min ilə əvəzdi bircə saatı,
Kəsilməz dilindən layla, bayatı,
Qayğılı, duyğulu ürəkdi anam.

Bilməz hikkə nədir ucalanda da,
Özünü tox tutar ac olanda da,
Oğluna, qızına qocalanda da,
İsti qucağıyla gərəkdi anam.

Sözlər şirinləşər şirin dilində,
Aləmə nur yayar üzü güləndə,
Bəzən polad sınar onun əlində,
Bəzən ipək kimi kövrəkdi anam.

Aygünəm, yadımdan çıxmaz bu məsəl,
Heç vaxt son sözümü demərəm əzəl,
Gözəllər yanında hamıdan gözəl,
Mələklər yanında mələkdi anam.

## KİM ANLASIN

Sözü billə-billə danış,
Qadağa ver dilə danış,
Danışanda elə danış,
Arada him-cim olmasın.

Özüm billəm min dərdimi,
Unutmaram mən dərdimi,
Saza söyləsəm dərdimi,
Mizrab sınsın, sim ağlasın.

Toyda məni, yasda məni,
Kəs də məni, as da məni,
Anlamırsa dost da məni,
Onda məni kim anlasın.

## ANAMI GÖRÜRƏM

Günəş şəfəqini yayır ellərə,
Lalədən don biçir qızıl çöllərə,
Gözlərim baxsa da gözəl güllərə,
Bu gözəllik dünyasında
Anamı görürəm, anamı ancaq!

Dostun ürəyini dost da didərmi?
İnsan əbədimi, gəldi-gedərmi?
Yaxşılıq dünyada axı itərmi,
Bu yaxşılıq xülyasında
Anamı görürəm, anamı ancaq!

Bir gün dərd mənimlə görüşsə əgər,
Büdrəyib ayağım sürüşsə əgər,
Yanımı kim kəsər, qayğımı çəkər,
Bu çətinlik dünyasında
Anamı görürəm, anamı ancaq!

## GÜL AÇIM MƏN DƏ

Göy başım üstə bir mavi çətir,
Yerlərə baxıram min rəngə çalır.
Bürüyüb dünyanı neçə min ətir,
Adamın huşunu başından alır.

Hər gülün, çiçəyin öz nəğməsi var,
Burda qulağıma neçə səs gəlir.
Burda yaşamaqdan doymaqmı olar?
Könlümə min istək, min həvəs gəlir.

Az qala bülbül tək ötüm burdaca,
Bu nə gözəllikdir çöldə, çəməndə.
Elə istəyirəm itim burdaca,
Ürəyim çırtlasın, gül açım mən də.

